

NƏ QƏDƏR Kİ, MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!

VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

№ 116 (6882) / Çərşənbə, 5 iyul 2017-ci il


*Prezident İlham Əliyev:*

## Aprel döyüşləri nəticəsində bu gün biz köçkünləri öz doğma kəndinə yola salırıq



Ordumuzun döyüş qabiliyyəti, vətənpərvərlik ruhu yüksək səviyyədədir. Bunu təmas xəttindəki vəziyyət əyani şəkildə təsdiqləyir. Bu gün biz təmas xəttində tam üstünlüyə malikik. Bu üstünlüyü biz əldə etmişik və bunu artırırıq. Bizim döyüş qabiliyyətimizi əks etdirən bir çox hadisələr olub. Onların içərisində keçənilki aprel döyüşləri xüsusi qeyd edilməlidir.

Bu döyüşlər nəticəsində Ermənistanın hərbi təcavüzünün qarşısını alarkən bizim hərbçilərimiz böyük qəhrəmanlıq göstərərək işğalçılardan üç rayonun bir hissəsini azad etmişlər. O yerlərdə, o torpaqlarda bu gün Azərbaycan bayrağı dalğalanır. Aprel döyüşləri nəticəsində bu gün biz köçkünləri öz doğma kəndinə yola salırıq.

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

*Zatı-aliləri.*

*Ölkənizin milli bayramı münasibətilə Zati-alinizə və Azərbaycan xalqına Mali xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırmağı özümə şərəf bilirəm.*

*Bu xoş fürsətdən istifadə edərək, Mali Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərini daim möhkəmləndirmək əzmində olduğumu bir daha təsdiq etmək istərdim.*

*Mən Zati-alinizə səmimi qəlbdən möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına tərəqqi və daimi firavanlıq arzulayıram.*

*Cənab Prezident, xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edin.*

*Hörmətlə,*

***İbrahim Bubakar Keyta***

*Mali Respublikasının Prezidenti*

*Arança Qonzales:*

## Azərbaycan tərəqqiyə və irəliləyişə can atan ölkədir



⇨ Baxı: səh. 3

⇧ Baxı: səh. 8

## Səbaildə YAP-ın yeni ərazi ilk partiya təşkilatları təsis edilib

⇧ Baxı: səh. 4

## Bakı Ali Neft Məktəbinin məzun və tələbələri STAR-da işləyəcək



## AZƏRBAYCANDA DİNİ DURUM SABİTDİR



⇨ Baxı: səh. 5

⇧ Baxı: səh. 3



## Akademik Cəlal Əliyevin xatirəsi yad edilib

⇧ Baxı: səh. 6



## SOCAR işçilərinin uşaqları üçün Almaniyada yay düşərgəsi təşkil edilib


7 | 57.883 müştəri "Azəriqaz"ın xidmətlərindən faydalanıb

11 | *Səfir:* Azərbaycan və İran əlaqələri sarsılmazdır

16 | "Viber"də yeni funksiyalar

# Səbaildə YAP-ın yeni ərazi ilk partiya təşkilatları təsis edilib



İyulun 4-də Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatının idarə heyətinin növbəti iclası keçirilib.

YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı, professor Şəmsəddin Hacıyev son bir ayda respublikamızın, eləcə də YAP-ın, o cümlədən rayon partiya təşkilatının ictimai-siyasi həyatında baş verən hadisələrdən danışıb.

Ötən iclasdan keçən müddət ərzində YAP Səbail rayon təşkilatının gördüyü işlər haqqında ətraflı məlumat verən Şəmsəddin Hacıyev bildirib ki, iyun ayı ərzində Milli Qurtuluş Günü ilə bağlı çoxsaylı tədbirlər keçirilib, rayon təşkilatı nəzdində yeni ərazi ilk partiya təşkilatları təsis olunub. Mübarək Ramazan bayramı münasibətilə rayonun aztəminatlı sakinləri üçün bir neçə xeyriyyə aksiyası keçirilib və ciddi ehtiyacı olan, hərəkət etməkdə çətinlik çəkən yeddi nəfər aztəminatlı rayon sakininə əlil arabaları hədiyyə olunub. Məktəblilərin respublikamızın ali qanunvericilik orqanının fəaliyyəti ilə tanış olması üçün Milli Məclisə bir neçə ekskursiya təşkil edilib.

YAP Səbail rayon təşkilatının sədri ilin əvvəlindən 900-ə yaxın yeni üzvün partiya sıralarına daxil olduğunu və idarə heyətinin üzvlərinin bu müddətdə mətbuatda aktual məsələlər barədə çoxsaylı çıxışlarının, məqalə və müsahibələrinin dərc edilməsini xüsusi vurğulayıb.

Sonra gündəlikdə duran məsələlər müzakirə edilib.

"Bibi-Heybət" (50 saylı orta məktəb) ərazi ilk partiya təşkilatının sədri Sədaqət Həsənova, "Müharibə veteranları" (Azərbaycan Vətən Müharibəsi Veteranları Birliyinin Səbail rayon şöbəsi) ərazi ilk partiya təşkilatının sədri İlham Əliyev və "Əmək normaçıları" (SOCAR-ın Əmək Şəraiti Normalarının İşlənməsi İdarəsinin baş ofisi) ərazi ilk partiya təşkilatının sədri Telman Məhəmmədov təmsil etdikləri qurumlarda görülmüş işlər haqqında məruzələrlə çıxış ediblər.

Hesabat məruzələri səsə qoyularaq yekdilliklə qəbul olunub.

Daha sonra yeni təsis olunmuş ərazi ilk partiya təşkilatları - "Gənclər Fondu", "Milli Kitabxana" və "Şıx Sanatoriyası" ərazi ilk partiya təşkilatlarından daxil olmuş müraciətlərə baxılıb. Hər üç ərazi ilk partiya təşkilatının qeydiyyata alınması barədə qərar qəbul edilib.

Sonra "Xəzər dənizçiləri" ("Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC) ərazi ilk partiya təşkilatının sədri İzafət Məmmədov 25 iyun dənizçilərin peşə bayramı - Dənizçi Günü münasibətilə rayon təşkilatının fəxri fərmanı ilə təltif olunub.

Sonda cari məsələlərə baxılıb, müvafiq qərarlar qəbul edilib.

**Zamin Məmmədov,**
***"İki sahil"***

## Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası

Fərhad Abdullayevin sədrliyi ilə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun xüsusi konstitusiya icraatı üzrə növbəti açıq məhkəmə iclası keçirilib.

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən bildiriblər ki, iclasda Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Cinayət Məcəlləsinin 333.1-ci və 333.3-cü maddələrinin şərh edilməsinə dair konstitusiya işinə baxılıb.

Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim M.Muradovun məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssislərin çıxışlarını, ekspertin rəyini dinləyib, işin materiallarını araşdırıb müzakirə edərək qərar qəbul edib.

Qərarda deyilir ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 333.1-ci və 333.3-cü maddələrində nəzərdə tutulmuş əməllər ilk dəfə müvafiq olaraq üç və on gündən az müddətə törədildiyindən cinayət tərkibinin olmamasına görə cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarın mövcudluğu həmin əməlin təkrar törədilməsinə görə cinayət işinin başlanmasına və şəxsin cinayət məsuliyyətinə cəlb edilməsinə mane olmur. İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 84.5.8-ci maddəsinə uyğun olaraq təhqiqatçının və ya müstəntiqin yalnız qanunsuz və əsassız qərarlarını ləğv etmək hüququna malikdir.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

## Türkiyə Almaniyaya nota verib

Türkiyə Almaniyaya etiraz notası verib. APA-nın NTV telekanalına istinadən verdiyi məlumata görə, səbəb iyulun 3-də "Siyasi Gözəllik Mərkəzi" adlı təşkilatın Berlində Almaniya hökumətinin binası qarşısında bir avtomobilin önündə açdığı plakat olub.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Rusiya Prezidenti Vladimir Putin və Səudiyyə Ərəbistanının kralı Salmanın şəkillərinin olduğu plakatda yazılıb ki, "bu avtomobilin sahibi olmaq istəyirsənsə, diktaturanı öldür".

Bununla əlaqədar Türkiyənin Berlindəki səfirliyi təcili Almaniya Xarici İşlər Nazirliyinə etiraz notası göndərib. Notada qeyd edilib ki, Almaniya Nazirlər Kabinetinin binası qarşısında və təhlükəsizlik qüvvələrinin mühafizəsində bu cür zorakılığı təbliğ edən bir aksiyanın keçirilməsinə icazə verilməsi anlaşılan və qəbul edilən deyil, barışa xidmət etmir.

## *Təhsil sahəsində əməkdaşlıq müzakirə olunub*




Azərbaycan və Türkiyə arasında təhsil sahəsində əməkdaşlığın inkişaf etdirilməsi məqsədi ilə təhsil dialoqu çərçivəsində işçi qrupunun ilk iclası öz işinə başlayıb.

Təhsil Nazirliyindən Trend-ə verilən məlumata görə, iki gün davam edəcək iclası təhsil naziri Mikayıl Cabbarov açıb. Nazir iki ölkə arasında strateji tərəfdaşlıq çərçivəsində təhsil əlaqələrinin inkişafını yüksək qiymətləndirib və əməkdaşlığın inkişafının vacibliyini vurğulayıb.

Sonra Azərbaycan Respublikası təhsil nazirinin müavini Ceyhun Bayramov və Türkiyə milli təhsil nazirinin müavini Orhan Erdemin iştirakı ilə hər iki ölkənin təhsil qurumlarının aidiyyəti sahələri üzrə təmsilçilərinin işçi görüşü olub.

Görüş çərçivəsində iki ölkə arasında təhsil sahəsində münasibətlərin cari vəziyyəti, hüquqi baza və gələcək əməkdaşlıq perspektivləri müzakirə olunub.

## Köləndə Azərbaycan vətəndaşları üçün səyyar konsulluq qəbulu təşkil edilib

Azərbaycanın Almaniyadakı səfirliyi tərəfindən Köln şəhərində Azərbaycan vətəndaşları üçün səyyar konsulluq qəbulu təşkil edilib.

Bu barədə Trend-ə səfirlikdən məlumat verilib.

Qəbul zamanı səfirliyin əməkdaşları tərəfindən vətəndaşlarımıza konsulluq-hüquq sahəsində məsləhətlər verilib, onları maraqlandıran suallar cavablandırılıb, sənədləri qəbul edilib və səfirliyin konsulluq şöbəsində göstərilən xidmətlər barədə ətraflı məlumatlar diqqətə çatdırılıb.



Həmin gün Şimali Reyn-Vestfaliya federal əyalətində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının rəhbərləri və fealları ilə görüş keçirilib. Görüş zamanı Almaniyadakı Azərbaycan diaspor təşkilatlarının fəaliyyətinə nəzər salınıb, qarşıda duran işlərdən danışılıb, fəaliyyətin təkmilləşdirilməsi və səmərəliliyinin artırılması üçün təkliflər səsləndirilib, eləcə də səfirliyin diasporla əməkdaşlığı məsələlərinə toxunulub.